BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2013

UOT: 18; 18:001.12; 101.1; 11

# İDRAK PROSESİNDƏ ESTETİK TƏFƏKKÜRÜN MÖVQEYİ

**OSMAN ƏFƏNDİ**
***Azərbaycan Dövlət İqtisad Universiteti***

*Məqalədə hissi idrakla məntiqi idrakın dialektlik məzmununa aydınlıq gətirilərək «ekstetik təfəkkür» anlayışının buradakı mövqeyi müəyyən olunur, idrakın forması kimi estetik idrakın obyektin məzmunu və spesifik təcəssüm formaları elmi əsaslarla şərh olunur.*

**Açar sözlər:** estetik təfəkkür, hadisə, proses, abstrakt bilik

Estetik təfəkkür hadisə və proseslərin estetik mahiyyətinin açılmasında xüsusi fəallığa və geniş imkanlara malikdir. Estetik təfəkkürün bu fəallığı birinci olaraq estetik ideyaların təbiəti ilə bağlılığında görsənir. Onun imkan genişliyi isə predmet və hadisələrin əsrarəngiz, müxtəlif, oxşar, fərqli cəhətlərini bir vəhdət halında aşkara çıxarmaqdan ibarət olmasında görsənir. Belə ki, estetik təfəkkür hadisə və proseslərin mahiyyətinə zəkanın, ağlın, düşüncənin nüfuz etməsindən ibarət olan mücərrəd dialektlik prosesdir.

Mücərrəd dialektlik proses kimi estetik təfəkkür mücərrəd təbiətə malik olub, estetik aləmin müəyyən bir cəhətinin dərk edilməsində, həm də daha dərindən dərk edilməsinin nəticəsində abstrakt bliyin formalaşması ilə bağlıdır. Bu zaman o maddi və mənəvi gerçəklik haqqında çoxcəhətli bilik formalaşdıran konkret bilik, fəlsəfi dildə desək, şeyin özündə müxtəlif cəhətlərin, müxtəlif keyfiyyətlərin, müxtəlif amillərin, müxtəlif xassələrin və s. vəhdətidir. «Hər bir başqa konkret nə qədər zəngin olur-olsun, bu dərəcədə özündə konkret deyil, hər bir daha az konkret olan, adətən konkret altında başa düşülən, bir-biri ilə xarici bağlılıqda olan müxtəliflikdir» (3, 340).

Mücərrəd bilik isə konkret bilikdən fərqli olaraq şeyin ancaq mühüm cəhətini, hətta ən mühüm cəhətini (xüsusilə, «estetik ideal» sahəsində) əks etdirir.

Buna görə də, mücərrəd dialektlik proses kimi estetik təfəkkür mühüm və ya ən mühüm cəhəti və ya zəruri tərəfi əks etdirməklə estetik mənalı obyektin mahiyyətinə daha çox, həm də daha düzgün yaxınlaşmağa, deməli, ona «çatmağa» (yəni, bu mahiyyətin açılmasına) kömək edir. Bu da estetik idrak bixamından daha çox əhəmiyyətlidir. Çünki, abstraksiya ancaq şeyin mühüm

və zəruri cəhətini, qanunauyğun keyfiyyətlərini əks etdirdikcə daha qiymətli olur. Ağılsız, boş, cəfəng, əhəmiyyətsiz, ötəri və s. cəhətlərini götürdükdə isə abstraksiya mənasız olur. Mücərrəd təbiətli estetik təfəkkür də bu mənasızlıqdan uzaqda durduqda daha mənalı və ya daha qiymətli olur.

Deməli, mücərrədlik estetik təfəkkürün məzmununu təşkil edən əsas amillərdən biridir. Bu məzmunda estetik təfəkkür estetik gerçəkliyi abstraksiyalar şəkilində, şeyin ayrı-ayrı cəhətlərini təcrid etmək formasında əks etdirir. Bir qədər dəqiq desək, estetik predmet haqqındakı ümumi və geniş təsəvvürdən uzaqlaşıb, bu predmetə məxsus mühüm cəhəti ondan ayırıb götürür. Həm də, estetik predmetin mühüm bir cəhətini abstraksiya, gerçəklikdə mövcud olmayan xalis şəklində, yəni ideala müvafiqliyin xalis formasında ayırıb götürür. Məhz bu məqamda estetik təfəkkür estetik hadisələrin, predmetlərin və proseslərin estetik mahiyyətini dərk etməyə əhəmiyyətli şərait yaradır. Burada, orta əsrlər fəlsəfəsinin görkəmli nümayəndəsi, böyük filosof Bəhmənyarın haqqında danışılan məsələyə dair bir fikrinə istinad edək: «İnsani nəfs özünü dərk edir, çünki, o mücərrəddir. Heyvani nəfslər isə mücərrəd deyillər, deməli, özlərini dərk etmirlər. Zira şeyin əqli cəhəti onun materiyadan təcrid edilməsidir, o mücərrəd olmasaydı, əql ilə yox, təxəyyüllə dərk edilən olardı» (1).

Bəhmənyar burada abstrakt təfəkkürün mahiyyətini açmaq məqsədilə «insanın özünü dərk etməsi» kimi mücərrəd fəlsəfi prosesi dərin məzmunlu mülahizəsinə uğurlu bir nümunə seçmişdir. Bu parlaq mülahizədən bir çox idraki amillərə olduğu kimi, estetik idraka da işıq düşür. Deməli, estetik təfəkkür obyektin mühüm və zəruri cəhətinin dərk olunma vasitəsilə zənginlik tapır. Bu dərk olunma prosesi ilk növbədə özünü mücərrəd təfəkkür forması kimi ifadə edir. Mücərrəd məzmunlu estetik təfəkkür məhz bu xüsusda mənalı təfəkkür formasına çevrilir, çünki, o «ağılsız», «boş», «təsadüfi» cəhətlərin mənasızlığına deyil, mühüm və zəruri qanunauyğunluqların əks olunmasına əsaslanır.

Mücərrəd məzmunlu estetik təfəkkürün səciyyələndirən mühüm amillərdən biri də onun nisbətən müstəqil mövqe tutması ilə əlaqədardır. Belə ki, abstrakt idrak ona görə mümkün hesab olunur ki, şeyin ayrı-ayrı cəhətləri, xassələri, nisbətən müstəqildir. Bu müstəqillik idrak formalarına, o cümlədən, təfəkkür prosesinə də, şübhəsiz ki, geniş şəkildə şamil olunur. Burada estetik təfəkkürün də, öz mövqeyi, həm də özünəməxsus mövqeyi vardır. Odur ki, estetik təfəkkür spesifik keyfiyyətlərə, spesifik xüsusiyyətlərə və spesifik xassələrə malik bir anlayış kimi özünü göstərir.

Estetik təfəkkürün spesifikliyi onu digər idrak formalarıdan, eynilə də, digər təfəkkür formalarından bir qədər fərqləndirir. Bu təfəkkür forması estetik məzmun daşıdığından predmet və hadisələrin mühüm və zəruri cəhətini spesifik şəkildə əsk etdirir. Odur ki, o estetik qanunayuğunlaqların spesfik formada ortaya çıxarılmasında mühüm rol oynayır. Bu amil də estetik idrakın zənginləşməsində mühüm əhəmiyyət kəsb edir.

İdrak prosesində olduğu kimi estetik idrak prosesində də bir cəhəti götürüb, digər cəhəti və ya cəhətləri nəzərə almamaq, onu təfəkkür obyektinə daxil

etməmək, təbii ki, mümkündür. Nəzərə alınan və ya obyektə götürülən cəhətin seçilib qiymətləndirilməsi, yaxud onun mahiyyətinin açılması heç də yeknəsək proses deyildir. Yəni obyekti çox və müxtəlif tərəflərdən öyrənmək mümkündür. Bu mümkünlüyün estetik cəhəti xüsusi şəkildə, yəni, estetik təfəkkürün spesifik xüsusiyyətləri əsasında öz ifadəsini tapır. Məsələn, bədii yaradıcılıq daim fəlsəfənin və digər elm sahələrinin: etikanın, psixologiyanın, tarixin (xüsusilə etnoqrafiya və arxeologiya), hüququn, məntiqin və b. diqqətində olmuş və bu sahələrin təhlil obyektinə çevrilmişdir. Bu sahələrin hər biri bədii yaradıcılığa heç də eyni ölçülərlə yanaşmamışdır. Bunlardan hər birinin öz əlaqə xüsusiyyəti olduğundan bədii yaradıcılıqla münasibətləri də fərqlənir. Əlbəttə, bu fərqlərin üzə çıxması təfəkkür imkanları və manevrləri ilə bağlı məsələdir.

Lakin, estetik təfəkkürün bədii yaradıcılığa münasibət digər münasibət formalarından fərqli bir mövqeyə malikdir. Bu mövqeyin məzmununda estetik təfəkkürün spesifik xüsusiyyətləri özünü göstərir. Bu xüsusiyyətlər nəinki adları qeyd olunan elm sahələr ilə, hətta bədii yaradıcılığını daxili quruluşu və məna çalarları ilə də fərqləri ortaya çıxarır. Bu fərq ilk növbədə və daha dərin mənada bədii və estetik təfəkkür əməliyyatı kimi – bədii ideya ilə estetik ideyanın spesifikliiyndə özünü göstərir. Mücərrəd məzmunlu «Estetik ideya» nəinki bədii ideya ilə hətta digər mənəvi ideya formalarında keyfiyyətcə fərqli mövqe tutur. Belə ki, bədii və digər mənəvi idyealar bəlli məqamlara, təzahürlərə faktların ümumiliyinə və s. əsaslanırsa da, estetik ideya adilikdən, konkretlikdən kənar edilmiş unikallığa əsaslanır. Məsələn, bədii ideya obraza əsaslanırsa, estetik ideya obrazlar sonsuzluğunun təcəssüm xüsusiyyətinə əsaslanır. Belə ki, estetik idyeanın məzmunu obrazda deyil, «proobraz»da təcəllə xüsusiyyətinə əsaslanır. Fikrimizcə, bu baxımdan estetik ideya – ideyalar çoxluğunun sintezindən yaranır.

Yeri gəlmişkən, burada bir məsələnin də üzərində ötəri dayanmağı münasib bilirik. Bu da bədii və estetik ideyanın elmi-nəzəri sahələrdə düzgün anlaşıla bilməsinin, daha doğrusu yanlış və səhv anlaşılmasının nəticəsində baş verir. Başlıca olaraq da, belə nəzəriyyəçilərin fəlsəfi-estetik bilik səviyyəsinin aşağı olması belə səhflərin tədqiqatlarda yer tutmasına səbəb olur.

Hər hansı bir bədii əsəri öz tədqiqatına obyekt götürən fəlsəfə elminin adamı-fəlsəfi-estetik təfəkkürə malik olmadığından – həmin əsərin bədii təhlilini fəlsəfi- estetik təhlil kimi təqdim edir, yəni o, bədii təhlil səviyyəsindən kənara çıxa bilməyir. Çünki fəlsəfə elmini təmsil edən bu «tədqiqatçıya» elmi-nəzəri estetik təfəkkür meyyarları məlum deyildir. Nümunə kimi nəzərdə tutduğumuz həmin bədii əsər filoloq tərəfindən tədqiq olunduqda da bədii təhlil (haqlı olaraq) ortaya gəlir. Onda fəlsəfə sahəsinin adamının bədii yaradıcılığa baş vurmasına nə ehtiyac var? Axı filoloqlar öz işlərini görür, həm də düzgün görürlər. Bəzən də filoloqlar hər hansı bədii əsər (misal üçün klassik poeziya) haqqında danışarkən özlərini əsərdəki «böyük fəlsəfi fikirlərin» şərhçiləri kimi göstərirlər, halbuki, belə şərhlər bədii səviyyədən əsla yuxarı qalxa bilməyir.

Bütün bunlara səbəb bədii təfəkkürlə estetik təfəkkürün fərqli və müstəqil

mövqeyinin anlaşılmamasındadır. Belə müəlliflərə fəlsəfə ilə bədii yaradıcılığın dialektlik mahiyyəti aydın deyildir. Unutmaq olmaz ki, fəlsəfə ilə bədii yaradıcılığın qarşılıqlı münasibətlərində obyektiv qanunauyğunluq və bu qanunauyğunluğun spesifik ifadə vasitələri mövcuddur. İdrak formaları kimi hər iki tərəf: biri- digərinin zənginləşməsinə, bilik səviyyəsinin dərinləşməsinə, həqəqətin ortaya çıxarılmasına, böyük amalların dərk olunmasına və s. xidmət edir. Ona görə də fəlsəfə və incəsənət varlığın mənəvi mənimsənilməsi prosesində ictimai idrakın müstəqil formaları kimi çıxış edirlər. İdrakın müstəqil formaları kimi (fəlsəfi və bədii idrak kimi) onlar spesifik məzmuna və öz məzmunlarının əsasında müxtəlif fəaliyyət dinamikasına malikdirlər. «Bədii yaradıcılıq daim fəlsəfi təhlilin obyekti olmuşdur… Fəlsəfə əksər hallarda incəsənətə qnoseoloji prospektiv planda müraciət edir, ona ya fəlsəfi biliyin predmeti, ya da insanların idrakı fəaliyyətinin müəyyən pilləsi kimi baxardı» (6, 10). Buna görə də, fəlsəfə ilə incəsənət arasındakı fərqlər çox və müxtəlifdir. Lakin fəlsəfə ilə incəsənətin arasındakı fərqlərin ən başlıcası bunlardır: fəlsəfə mahiyyətin inkasına, qanunların açılmasına xidmət edir. İncəsənət hadisə və predmetlərin təsvirinə, hissi-emosional vəziyyətlərin ifadəsinə, insan və təbiət obyektlərinin şövqülü tərənnümünə xidmət edir.

Bununla belə, fəlsəfə və incəsənətin dialektlik mahiyyəti onların ümumi əlaqələrinə kölgə salmır. Bu əlaqələrin ən aydın şəklini belə ifadə edə bilərik: fəlsəfi «bədiiliyə», bədiiliiyndə «fəlsəfəyə» ehtiyacı vardır. Ona görə də fəlsəfənin fikrin ifadəsində bədiilik, bədii fikrin ifadəsində fəlsəfi məna özünü göstərə bilir. Lakin bu o deməк deyildir ki, bir filoloq klassik poeziya nümunəsini təhlil edərkən sunii yollarla, qondarma ifadələrlə, məzmunsuz sözlərlə həmin bədii əsərin, bədii ideyasının açıqlamaya və ya təyin edə bilmədiyi halda onun «fəlsəfəsindən» bayağı mühakimə yürütmək ixtiyarında olsun. Belə bayağı mühakimələrdə klassik şer nümunəsində ərəb-fars tərkibli sözlərin tərcümə yönlü izahı şairin və ya şerin «fəlsəfəsi» kimi yozulur. Bu fikri poetik qüdrət sahibi, böyük Füzuli yaradıcılığına tədqiqatçı gözü ilə baxanlara daha çox istiqamətləndiririk. Böyük Fizulinin klassik yaradıcılığı doğrudan da təkcə bədii idrakın deyil, fəlsəfi idrakın da əsrarəngiz obyektidir. Lakin, çox halda, hətta demək olar ki, lap çox halda, Fizulinin əsərlərində təcəssüm edən zəngin fəlsəfi ideyaların və ya onun fəlsəfi- estetik mahiyyətini ortaya çıxaran tədqiqata təsadüf olunmur. Çünki bu «nəzəriyyə» sahibləri şairin yaradıcığına fəlsəfi- estetik təfəkkürün metodu ilə deyil, sadəcə bədii-filoloji təhlilin adi – aşağı üsulları və ya şit mübağiləsi əsasında yanışılır. Burada, sadəcə olaraq, fəlsəfəyə yaxın olan mətinlərin, ifadələrin və ya sözlərin poetik obyektə qondarma əlavəsi, həm də sünni bayağı əlavəsi görünür.

Təkcə klassik sənət nümunələri deyil, ümumiyyətlə incəsənət, fəlsəfəyə məxsus mətnlərin, anlayışların, ifadələrin ona süni şəkildə əlavə edilməsindən heç də fəlsəfi məna daşımır və ya fəlsəfi əsər olmur.

Bütün bu və buna bənzər problemlərin həllində bədii və estetik şüurun qarşılıqlı əlaqələrinin, eyni zamanda, bədii və estetik təfəkkürün spesifik

xüsusiyyətlərinin dərindən öyrənilməsi çox əhəmiyyətli rol oynayır. Çünki, bu təfəkkür formalarının öz spesifik xüsusiyyətləri vardır. Bu spesifiklik nəzərə alınmadıqda onların arasında mövcud olan sərhəd müəyyənliyi də pozulmağa başlayır. Buna görə də, bədii təhlil fəlsəfi təhlil kimi gözə soxulur. Qeyd edək ki, incəsənəti obyekt götürən «fəlsəfi» tədqiqatların çox böyük əksəriyyəti məhz bu gündədir.

Beləliklə, hər hansı bir bədii əsərin özünəməxsus bədii idyeası o əsərin mahiyyətindən doğur. Lakin o estetik ideya deyildir. Çünki bədii ideya bədii təfəkkürün məhsuludur.

Nümunə kimi və ya obrazlı şəkildə nəzərdə tutduğumuz «həmin» bədii əsərdə estetik təfəkkürdən doğan estetik ideyanın da xüsusi yeri vardır. Bu da ictimai şüur forması olan incəsənətin məzmunu ilə bağlı olan məsələdir. Yəni bir sənət əsərində bir çox şüur formalarının, eləcə də ideya formalarının təcəssümü üçün meydan vardır. Bədii yaradıcılıqda estetik ideyanın geniş təcəssümü estetik təfəkkürün dərinliyinə və zənginliyinə bağlıdır. Estetik təfəkkürün sayəsində meydana gələn estetik ideya bədii yaradıcılığın təsviri vasitəsilə yaradılan sənət gerçəkliyində həyati gerçəkliyin gözəlliyini axtarır, tapır və onu spesifik idrakı formada ifadə edir. Əslində bu ifadə formasının gözəllik xüsusiyyəti həyati gerçəkliyin mənası kimi səslənən həqiqətin fəlsəfi-məntiqi yolla dərk edilməsinə həsr edilmişdir.

Burada böyük filosof Əl-Qəzalinin məşhur bir fikrinə əsaslansaq, fikrimizə aydınlıq gətirmiş olarıq: «Həqiqətin məntiqi yolla üzə çıxarılması idrak deməkdir» (2, 569).

***Estetik anlayış.*** Mücərrəd məzmunlu estetik təfəkkür nəzəri idrak səviyyəsi olmaq etibarilə «estetik anlayış» formasında özünü geniş ifadə edir. Buna görə də, estetik təfəkkür kateqoriyasını «estetik anlayışlar»dan kənarda təsəvvür etmək mümkün deyildir. Çünki estetik anlayışlar təfəkkür amili kimi estetik idrakın mahiyyətini əsk etdirir. «... Fəlsəfədə şüurun özünün bilavasitəliyində mövcud və müstəqil saydığı bütün digər şeylər yalnız ideal momentlər kimi dərk edildiyindən fəlsəfə anlayışlar vasitəsilə gerçəkləşən idrakdır» (3, 332).

Müxtəlif anlayış formaları kimi estetik anlayış da hadisənin mahiyyətini və onun daxili əlaqəsini məhz estetik idrakın bir forması olaraq öyrənir. Başqa sözlə, estetik anlayış seçilən, fərqlənən xüsusi təfəkkür forması olaraq predmetin və ya hadisənin ən ümumi, əsas, zəruri xüsusiyyətlərini və ya əlamətlərini spesifik formada əks etdirir. Buna görə də, Hegel öyrədir: «Anlayışa forma kimi, ancaq məzmunun bütövlüyünü özünə daxil edən və bununla birlikdə onun qaynağı olan sonsuz yaradıcı forma kimi baxmaq lazımdır» (3, 332).

Fikrimizcə anlayışa yaradıcı forma kimi baxmağın mahiyyətində onun həmişə məntiqi abstraksiyadan ibarət olması xüsusiyyəti dayanır. Anlayış bu xüsusiyyətdə (yəni, məntiqi abstraksiya forması kimi) hissiyyatdan məhrumdur. Buna görə də, estetik idrak prosesində estetik duyğular, biofizioloji duyğulardan, estetik hisslər biofiziopsixoloji hisslərdən, estetik həyacan biofiziopsi-

xoloji həyacanlardan ayrılır. Ona görə də biofiziopsixoloji məzmunlu duyğu, hiss, həyacan anlayışları, estetik idrakda estetik məzmundu anlyışlara çevrilərək «estetik duyğu», «estetik hiss», «estetik həyacan» kimi müstəqil mövqe qazanırlar (8, 21). Onların mənşəyində bəzən biofiziopsixoloji amillərin solğun və zəif izləri qalsa da, kəmiyyət dəyişkənliyi nəticəsində estetik hiss və ya estetik duyğu mahiyyətcə yeni keyfiyyətli anlayışlardır.

Bu keyfiyyət fərqi məntiqi abstraksiyanın sayəsində yaranır. Yəni, biofiziopsixoloji məzmunlu duyğu, hiss,estetik həyacan isə abstrakt biliyin obyektinə çevrilir. Böyük Hegelin bu ideyası söylədiyimiz mühakimənin düzgünlüyünə hökm verir: «… Onun seyrə yüksələn məzmunu – təsəvvürə çevrilən şey kimi – öz duyğularıdır və sonra düşüncəyə çevrilən təsəvvürlər və i.a.» (4, 294).

Böyük filosofun bu parlaq ideyası biofiziopsixoloji məzmunlu düyğunun spesifik vəziyyətinin kəmiyyət dəyişkənliyi sayəsində yaranan abstrakt vəziyyəti ilə dialektlikasının mahiyyətini açır. Belə möhtəşəm idyeanın geniş şərhinə ehtiyacımız olmasa da, demək istəyirik ki, burada «duyğular» - əvvəlcə təsəvvürə, sonra düşüncəyə, sonra «və i.a.»- ya çevrilir. Qüdrətli filosofun «və i.a».-sının arxasında, fikrimizcə, təfəkkür, təxəyyül, idrak, ən yüksəkdə isə ideal anlayışlarının dayandığını zənn etmək çətin deyildir. Deməli, duyğular təsəvvürə, düşüncəyə, təxəllüyə, təfəkkürə, ideala çevrilərək, konkret bilikdən uzaqlaşmış vəziyyətdə abstrakt biliyə daxil olurlar. Bu durumda «estetik duyğu» - mücərrəd məzmunlu estetik anlayışdır. Beləliklə, estetik anlayışlar estetik təfəkkürün məzmununu təşkil edən və onun estetik mahiyyətini təcəssüm etdirən əsas və başlıca amillərdən biridir.

Anlayışdan kənar fəlsəfi təfəkkürün məzmununu dərk etmək mümkün olmadığı kimi, estetik anlayışdan kənarda da estetik təfəkkürün məzmununu dərk etmək mümkün deyildir. Anlayışın təfəkkür prosesindəki möhtəşəm rolu barədəki mülahizəmizi Hegelin parlaq bir fikri ilə tamamlamaq istərdik: «Fəlsəfədə anlayışsız danışmaq istəyənlərə yer yoxdur» (5, 196.)

***Estetik mühakimə.*** Mücərrəd təfəkkür prosesinin mühüm bir hissəsi olan estetik təfəkkürün başlıca xüsusiyyətlərindən biri də özünü «estetik mühakimə» formasında ifadə edir.

Hər bir təfəkkür forması kimi estetik təfəkkür də idrakın ən mühüm vasitələrindən, məqamlarından, əks etdirmə momentlərindən biri kimi varlığın universal kefiyyətini və bu keyfiyyətin mahiyyətindən doğan ən ümumi qanunauyğunluğunu əks etdirir. Bununlada o abstrakt idrak prosesində estetik mahiyyətin təcəssüm olunmasında müstəsna rol oynayır. Estetik təfəkkürün bu müstəsnalığı anlayış, əqli nəticə formaları ilə yanaşı, mühakimə formasının da iştirakına və fəallığına bağlıdır. Estetik təfəkkürün tamlığı və bütövlüyü bu formaların dialektik mövqeyindən və mücərrəd səviyyəli təsir gücündən dolğunluq və aydınlıq (ilk növbədə, məna aydınlığı) tapır. Bu dolğunluq və aydınlıq estetik təfəkkürün hər bir formasının üzərinə düşən fəaliyyət normalarının nizamlanması sayəsində özünü ifadə edir. Bununla da estetik təfəkkürün bütövlük və tamlıq mahiyyətinin təşəkkülündə estetik mühakimənin də öhdəsinə

mücərrəd yönlü mühüm yaradıcı vəzifələr düşür. Bu vəzifələrin sferası geniş olduğundan onun vasitəsilə estetik aləmin müxtəlif cəhətləri, xassələri, xüsusiyyətləri, münasibətləri daha dərindən və ya daha mürəkkəb «dərk edilən» olurlar. Bu mürəkkəblik (digər xüsusiyyətlərlə yanaşı) onun tərkibinin hissiyyatdan tamamilə kənarlaşdırılmış məntiqi abstraksiyaların mövcudluğundan doğan anlayışların mücərrəd təbiəti ilə bağlı olmasından ibarətdir. Başqa sözlə, bütün məntiqi mühakimlərlə anlayışlardan istifadə edərək müxtəlif səviyyəli mühakimələr yaratmağa və ya yeni idyeaların, fikirlərin mühakimə yolu ilə ortaya çıxarılmasına nail olunur. Anlayışların köməyi və ya iştirakı ilə formalaşan və ya «düzəldilən» mühakimələr öz təbiətlərinə və səviyyələrinə görə müəyyənləşirlər.

Lakin bütün mühakimə formalarını təkcə anlayış mühakiməsi ilə məhdudlaşdırmaq fikrimizcə düzgün deyildir. Təəssüflə qeyd edək ki, Hegeldən sonrakı fəlsəfədə (fəlsəfi tədqiqatlarda və dərsliklərdə) mühakiməni yalnız anlayış mühakiməsi kimi, hətta mühakimələri anlayışların cəmi kimi düşünürlər. Halbuki, mühakimənin müxtəlifliyi onun məzmununa daxil olan əsas amillərdəndir, yəni o müxtəlif növlərdə özünü ifadə edir. Fəlsəfə tarixində bü müxtəlifliyin ən parlaq fəlsəfi təhlilini Hegelin və Kantın adı ilə bağlamaq daha doğrudur.

Böyük filosof Hegel yazır: «Mühakimənin müxtəlif növləri təkcə empirik müxtəliflik kimi yox, həm də təffəkkürdə müəyyən olunan totallıq kimi başa düşülməlidir. Kantın böyük xidmətlərindən biri bu tələbin irəli sürməsindən ibarətdir» (3, 347).

Hegel mühakimənin müxtəlif növlərini və onların fəlsəfi mahiyyətini «məntiq» əsərində şərh edir. O, mühakimənin növlərini belə müəyyən edir: «a) keyfiyyət mühakiməsi», «b) Refleksiya mühakiməsi», «c) Zərurət mühakiməsi», «d) Anlayış mühakiməsi» (3, 348, 351, 353, 355).

Hegelin fəlsəfi mənada mühakimənin mahiyyətinə və təzahür xüsusiyyətlərinə dair dərin nəzəri baxışları təfəkkürün məzmun və formalarına aydınlıq gətirdiyi kimi, estetik təfəkkürədə, eyni zamanda haqqında danışdığımız estetik təfəkkür forması olan estetik mühakiməyə də aydınlıq gətirir. Hegelin mühakiməyə dair bu möhtəşəm təlimini əsas tutaraq, belə nəticəyə gəlirik ki, estetik mühakimə spesifik təfəkkür forması olmaq etibarilə onun mücərrəd təbiəti, Hegelin dili ilə desək, «anlayış mühakiməsi» növünə daha yaxındır. Çünki «burada (anlayış mühakiməsində – O.Ə.) subyekt və predikat arasında bilavasitə mühakimədə olan səbatsız və xarici bağlılıq yoxdur» (3, 349).

Estetik mühakimə mücərrəd hadisələrin estetik məzmununu iqrar və inkar edən fikirdir. Buna görə də, o mücərrəd ideyalarda əks olunur. Onun spesifik mövqeyi, fikrimizcə, ideyalardan doğan ideyada bütövlük tapır. Bu da o deməkdir ki, estetik mühakimə bədii, əxlaqi və s. ideyların üzərində qurulan ideyada (estetik ideyada) müəyyənlik tapır.

Məsələn, gözəllik idealına dair söylənilən hər hansı mühakimə bədii, əxlaqi idyeaların vasitəsilə və ya onların üzərində yaradıcılıqla qurulan estetik

ideyanın meydana çıxması ilə nəticələnir. Deməli, mühakimənin hasil olmasında iştirak edən estetik ideya başqa ideyalardan yaranır. Bu mənada filosof Berklinin fikrinə üstünlük veririk. Berkli deyir: İdeya yalnız ideyadan doğa bilər, onun maddi qaynağı yoxdur. Bütün ideyalar ruhda mövcuddur. «İdeya yalnız ideyadan başqa heç nəyə oxşaya bilməz» (7, 186.).

Beləliklə, estetik mühakimə abstrakt keyfiyyət kimi daha çox ideyalar və anlayışlara söykənir və onların vasitəsilə özünü ifadə edir.

Estetik təfəkkürün zənginləşməsində estetik mühakimənin əhəmiyyəti böyükdür. İdrak prosesində estetik təfəkürün mövqeyi estetik mühakimənin iştirakı ilə də zənginlik tapır.

Beləliklə, estetik təfəkkür özünəməxsus xassə və xüsusiyyətləri, zəngin keyfiyyətləri və spesifik qanunauyğunluqları ilə estetik idrakın məzmununu təşkil edən mühüm kateqoriyalarından biridir.

## ƏDƏBİYYAT


1. Bəhmənyar. Kitab ət təhsil. Tehran, 1971.
2. Ал-Газали. Избавляющий от заблуждения. Киев, 1999.
3. Hegel. Məntiq elmi. Bakı, 2005.
4. Hegel. Ruh fəlsəfəsi. Bakı, 2003.
5. Hegel. Hüquq fəlsəfəsi. Bakı, 2007.
6. Zis A. Estetikada konfrontasiyalar. Bakı, 1989.
7. Berkli C. Сочинения. M, 1978, s.186.
8. Osman Əfəndi. Estetik idrak. B. 2002.


## ПОЗИЦИЯ ЭСТЕТИЧЕСКОГО МЫШЛЕНИЯ В ПРОЦЕССЕ ПОЗНАНИЯ


**ОСМАН ЭФЕНДИ**


## РЕЗЮМЕ


В статье эстетическое мышление анализируется как абстрактно диалектический процесс. Здесь рассматривается специфическая позиция эстетического мышления, связанного с формированием абстрактного знания в эстетическом познании.

В статье излагаются особенности эстетического мышления, действующего как форма абстрактного познания и средства его выражения в процессе отражения действительности. Автор статьи излагает свои теоретические суждения, касающегося вопросу о философско-эстетической сущности и формы ее проявления понятия «эстетическое мышление».

В статье выделено место таким вопросам, как «эстетическое понятие» и «эстетическое суждение».



**Ключевые слова:** эстетическое мышление, случай, процесс, абстрактное знание

## THE POSITION OF AESTHETIC THOUGHT IN THE COGNITION PROCESS

**OSMAN EFENDI**

**SUMMARY**

Philosophical-aesthetic essence of aesthetic mental conception is revealed in the article. The paper studies the features of aesthetic thinking as a form of abstract cognition and the means of its expression in the process of reflecting reality. The author presents his theoretical jutgements on the question of philosophical – aesthetical essence and the form of the notion of "aesthetic thinking".

**Key words**: aesthetic cognition, abstract, aesthetic thought, aesthetic conception, abstract cognition